**UOT 745/749**

**Mehriban Şamsadinskaya**
**Azərbaycan Dövlət Rəssamlıq**
**Akademiyasının dissertantı**
**AZ 1029, Bakı, H.Əliyev pr. 26**
**E-mail:** sha_meri@hotmail.ru

# XX ƏSR AZƏRBAYCAN BƏDİİ PARÇALARINDA ORNAMENTAL ƏNƏNƏLƏR

**Xülasə**: XX əsr bədii parça sənətində ornamentlər, naxışlar, naxış yaddaşı demək olar ki, dekorativ sənətin digər sahələrində olduğu kimi ənənələrlə yanaşı rəssamların fərdi zövqü ilə də öz əsasını tapmışdır. Həmin ənənələr özünəməxsus qanunlarla formalaşıb inkişaf etmişdir.Əsasən batika sənəti kimi Azərbaycanın qədim kəlağayı sənətinin varisi sayılan bu janr müasir dövrümüzdə özünün inkişaf xəttini davam etdirməkdədir.

**Açar sözlər:** bədii parça, kəlağayı, ornament, naxış, element, bəzək.

Ornamentin meydana gəlməsi tarixin çox qədim dövrlərinə aiddir.Onun rüşeymlərinə artıq paleolit dövründə rast gəlinir. Neolit dövründə ornament daha çox forma müxtəlifliyi əldə edərək məişət əşyalarının dekorativ tərtibatında hakim yeri tutdu. Daha sonralar hər bir dövr, hər bir üslub, hər bir milli mədəniyyət öz ornament sistemlərini hazırladı, ona görə də əminliklə demək olar ki, ornament müxtəlif mədəni təbəqələrin bədii ənənələrini bütünlüklə əks etdirir.

Ornamentdə təbiəti yaradıcı surətdə dəyişən insan fəaliyyətinin estetik dərki təsvir edilmişdir. Dini təyinatlı işarələrin, simvolların və stilizə edilmiş təsvirlərin geniş istifadə edildiyi ən qədim ornamentlərin mərasimi və magik rolu əhəmiyyətlidir. Zaman keçdikcə qədim ornamental kompozisiyalar öz ilkin ovsunlayıcı məzmununu itirərək dekorativ ifadəliliyini saxlayıblar.

Bütün bu əlamətdən dekorativ-tətbiqi sənətin bir qolu olan bədii parça sahəsində də illərlə öz ənənəviliyini müəyyən mənada qoruyub saxlamaqla bərabər yeni formalara keçərək adiləşmiş, və yaxud tam əksinə mürəkkəb ifadələrlə qarşımıza çıxmışdır.

XX əsr bədii parça sənətində ornamentlər, naxışlar, naxış yaddaşı demək olar ki, dekorativ sənətin digər sahələrində olduğu kimi ənənələrlə yanaşı rəssamların fərdi zövqü ilə də öz əsasını tapmışdır.Həmin ənənələr özünəməxsus qanunlarla formalaşıb inkişaf etmişdir.

Əsasən batika sənəti kimi Azərbaycanın qədim kəlağayı sənətinin varisi sayılan bu janr müasir dövrümüzdə özünün inkişaf xəttini davam etdirməkdədir.Bu xüsusiyyətlər əsasən kəlağayının bir dəb kimi bütün zamanla üçün Azərbaycan qadının əsas geyim atributu kimi öz əhəmiyyətini qoruyub saxlamasıdır.Bir çox fərqli fikirlərin söylənməsinə baxmayaraq, artıq batika sənətinin vətəni Azərbaycan olması öz təsdiqini

tapmışdır.Bunun səbəbi isə yaxın tariximizdə bir qədər kəlağayı sənətinin unudulmaqda olması ilə əlaqədar bir çox Şərq və Avropa ölkələrində batika adı ilə inkişaf etdirilərək davam edilməyə başlamışdır.Lakin bütün araşdırmalar, qədim köklərə bağlı mədəniyyət kəlağayının məxsusi milli xüsusiyyətlərin məhz xalqımıza aid olduğunu sübut edən faktlarla meydana çıxmışdır.Təbii ki, bu xüsusiyyətlər milli ornamental xüsusiyyətləri özündə nümayiş etdirməklə öz izahını tapır.

Müasir batika haqqında bu sənətin görkəmli bilicisi olan mərhum rəssam Ənvər Qarayev belə qeyd etmişdir: "...milli-mədəni sərvəti olan kəlağayı sənəti bu gün özünü batikada təzahür etdirir. Bu sənətə Litvadan olan bir batika ustası ilə tanışlıqdan sonra maraq göstərmişəm.Lakin qədim kəlağayı sənəti isə əsl xalqımıza məxsus adət-ənənədir.Mən bu gün bu sənəti milli ənənələrə sadiq qalaraq inkişaf etdirməyə, həm kəlağayı sənətində, həm də müasir batikada Azərbaycanın tarixini, mədəniyyətini, folklorunu hər işimdə dünyaya çatdırmağa çalışıram".

Basqalda hazırlanmış 1940-cı ilə aid kəlağayı nümunəsi özünün zəngin ornamental xüsusiyyətləri ilə diqqəti çəkir.Tünd zoğalı yerli üzərinə qızılı rənglərlə vurulmuş naxış elementləri ənənəvi ornamental xüsusiyyətlərin ən incə variantlarını fərdi yaradıcılıq formasında qarşımıza çıxarır.

Qeyd edilən "Herati" kəlağayı yerli sənətkar Nazim Əsgərov tərəfindən hazırlanmışdır. Kəlağayı ipək parça üzərində basma üsulu ilə həll edilmiş, uzunluğu 165 sm, eni isə 160 sm-dir. Məmulatın olduqca sıx şəkildə naxışlanmış forması öz ornamental xüsusiyyətlərinə görə bu sənətin 3 növündən birincisinə, yanı bəzəklərin bütün parça üzərində yer alması ilə diqqəti çəkir. Naxış elementlərinin sıxlığına baxmayaraq dəqiq rapport düzülüş, sistemli quruluş hər bir elementin dəqiq görünməsinə şərait yaradır.

Xalça elementlərindən istifadə onun milli-bədii xüsusiyyətlərini və naxış yaddaşının davam qorunub saxlanmasını sübut edir.Burada rəssamın mükəmməl ornamental kompozisiya yaratma bacarığı sayəsində ornamentlər nizamlanmış, demək olar ki, riyazi dəqiq kompozisiya quruluşu ilə maraq doğurur.Burada ilk növbədə harmoniya və proporsiya qanunlarına tabeçiliyin şahidi oluruq.Sənətkar kəlağayını təkrarlanan oxşar hissələrin növbələşməsi ilə həyata keçirmişdir.Bəzəklərin üfüqi və şaquli təkrarlanması harmonik naxış şəbəkəsini əmələ gətirmişdir.

Parçanın bir qədər açıq zoğalı yerlikli dördkünc orta hissəsində naxışlar ritmik keçidlərlə bir-birini əvəzləyir.Mərkəzdə iri xoncanın daxili hissəsində nöqtəli, həndəsi, xırda nəbati naxışlar cərgə ilə bir-birini əvəzləyərək haşiyələnmişdir.Tam mərkəzdə nöqtələr, onun haşiyəsində xırda yarpaq və çiçək elementlərinin stilizə olunmuş formasından ibarət növbəti haşiyə ilə artaraq yanlara doğru böyüməyə başlayır. Daha sonra kiçik oval formalı sadə elementin sistemli əvəzlənməsi, daha sonra yenə ağ və sarı nöqtəlin ifadəsi ilə həll edilmiş haşiyələr kompozisiyanın sadə formalardan ibarət, lakin mürəkkəb sıxlıq yaradan şəkildə ifadə edilmiş ornamental həllini təqdim edir. Əsas hissənin xonçanı əhatələyən hər dörd küncündə istifadə edilmiş həmin naxışların istifadəsi onun harmonik bədi ifadəsini canlandırır.Bu mənada hərəkətli dinamik naxış oyunlarının sıxlığı olduqca xoş təəssürat yaradır.Xalçanın bala haşiyəsi üç sırada düzülmüş milli ornamental və həndəsi naxışların sıralanması ilə həll edilmişdir.Kiçik rombvarı formaları alt qismində buta elementi, ondan sonra isə səkkizləçəkli çiçəklərin sıralanması haşiyənin kompozisiyasını xüsusi olaraq mükəmməlləşdirmişdir.

Kəlağayının ana haşiyəsi xüsusi olaraq daha dolğun olaraq verilmişdir.İri dairələrin daxili hissəsində altı butanın əmələ gətirdiyi dairəvi formaların kənarları da stilizə edilmiş çiçək naxışları ilə zənginləşdirilmişdir.

Burada bir motiv ornamentin əsas elementi kimi işlənilmişdir. Motiv bir elementdən ibarət sadə və yaxud vahid tamda plastik birləşmiş çoxlu elementlərdən ibarət olaraq mürəkkəb ola bilər. Ornamentin rapportu özünə motiv və qonşu motivə qədər olan məsafəni göstərir ki, əsrlərlə ənənəvi olan ornamental həllin bədii nümunəsi kimi kəlağayının klassik ənənələr əsasında yaranmış müasir formasını gözümüz önünə gətirir.Kompozisiyada mərkəzi ox simmetriyasına əsaslanır, bu zaman rapport mərkəzi ox ətrafında fırlanır.Ümumiyyətlə, dekorativ-tətbiqi sənətin başqa növlərində də istifadə edilən bu tipli ornamentdə motivlər çevrə ilə məhdudlanmış bütün səthi dolduraraq, mərkəzi nöqtədən şüalarla yayılırlar və fırlanan zaman tamamilə uzlaşırlar.Sentrik ornamentin ən xarakterik nümunəsi açılmış çiçək motivi olan rozetkadır.

Bədii parçalarda bəzən lentşəkilli ornamentlərə də rast gəlinir ki, burada rapport bir istiqamətdə inkişaf edərək dəfələrlə təkrarlanır.Bu zaman lentşəkilli ornamentdə motivlər düz xətt boyunca yerləşə bilirlər, bu cür ornament "düz zolaq", yaxud zolaqlı ornament adlanır. Bəzi hallarda rapport əyri xətt üzrə təkrarlanaraq "haşiyə" adlanır. Geyimlər üçün nəzərdə tutlmuş bədii parçalarının kompozisiyasında lentşəkilli ornament daha çox üfüqi istiqamətə malikdir. Onun tərtibi zamanı kompozisiyanın əsasında simmetriyanın güzgü simmetriyası, köçürmə simmetriyası (elementləri sabit uzunluğa malik məsafəyə düzünə köçürülən zaman) kimi müxtəlif növləri dayanır. Demək olar ki, bu, ornamental quruluşun ən geniş yayılmış növüdür.

Nümunə olaraq Cənubi Azərbaycan zonasına aid XX əsrin əvvəllərinə aid ipəkdən olan parça hissəsini göstərmək olar.Narıncı-qırmızının üzərində yarım üfüqi formada uzanan lentvarı xətti hissəsinin daxilində yerləşdirilmiş naxışlar narıncı, bəzi kiçik xətlərdə sarı rəngin ifadəsi ilə əlaqələndirilmiş stilizə edilmiş nəbati naxış elementləri ilə özünün mükəmməl bədii həllini tapmışdır.Daha ensiz haşiyələr bir-birini aralıqlardakı böyük hissələrlə əvəzləyərək bütün parça boyu eyni formada özünü əks etdirməkdədir.

1950-ci illərdə Basqalda yerli sənətkar olan Əli Qəhrəmanov tərəfindən hazırlanan ipək kəlağayı özünün daha fərqli ornamental həlli ilə maraq doğurur. Qara yerlik üzərində qırmızı narıncı, göy və ağ rəngin qarşılıqlı əlaqəsi ilə yaradılmış ornamental kompozisiya yerliyin tam görünməsinə imkan vermir. Ornamentlər nə qədər sadə olsa da onların uğurlu düzülüşü, sıxlığı kəlağayının dolğun tərtibata malik olduğunu göstərir.

Ornamental ənənələr haqqında danışarkən qeyd etmək lazımdır ki, bütün bədii parçalarda ornamentin xüsusiyyəti və onun quruluş prinsipləri kompozisiyanın müxtəlif növlərində böyük rol oynayırlar, çünki ornamentin köməyi ilə təkcə səthi bəzəmək deyil, eyni zamanda məmulatın istifadəsi zamanı onun hissələrini vurğulamaq, aydın təzahür etdirmək olur. Məsələn, mərkəzi hissə, yan tərəflər, künclər. Ornament adətən səthini bəzədiyi obyektin quruluşuna və ya tektonikasına tabe olur.

Qeyd edilən kəlağayıda kiçik nöqtələr, dairələr, çöxləçəkli güllər, stilizə edilmiş buta kimi elementlərin uğurlu əlaqələndirilməsi onun uğurlu ornamental kompozisiya quruluşunu təqdim edərək, müasir sənətkarların yaradıcılıqlarında da öz təsirini göstərəcək ənənəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir.

XX əsrin əvvəllərinə aid yenə də Basqalda ipək üzərində basma üsulu ilə hazırlanmış "Herati" kəlağayının bəzək elementləri sırf milli ornamental xüsusiyyətləri

ilə maraq doğurur.Uğurlu ornamental kompozisiya v harmonik rəng uyğunluluğu kəlağayının möhtəşəm formasını təqdim edir. Qara yerli üzərində qəhvəyi və sarı tonun qızılı çalarlarından edilmiş elementlərin arasına atılmış ağ nöqtəli naxışlar məmulatın harmonik bədii ifadəsindən xəbər verir. İri formalı butaların daxili hissə nəbati elementlərlə bəzədilmişdir.Butaların yan hissələri dilikli xətti formalarla əhatələnmişdir. Eyni quruluşda olan əsas bəzək ornament sistemli olaraq bir hissədə təkrarlanaraq davam edir. Kəlağayının kənar haşiyəsinin həndəsi xətti və nəbati elementlərin stilizə edilmiş formalarla həll edilməsi mərkəzi hissənin dolğunluğunu xüsusilə önə çəkir.

XX əsrin ortalarına aid Basqalda hazırlanmış "Herat" kəlağayı çəhrayı yerliyinin üzərində tünd narıncı buta elementinin üfüqi və şaquli sıralanması ilə onun olduqca estetik ornamental həllini təqdim edir. Kiçi bala haşiyədə xırda çiçək elementlərinin zərif görünüşü müxtəlif formalarla bəzədilmiş butaların harmonik ifadəsini daha da diqqətə çəkir.

Bədii parça üzərində ornamental ənənələrin uğurla davam etdirilməsini gənc rəssamların yaradıcılığında da izləmək olduqca qürurverici haldır. Misal olaraq gənc rəssam Şəhla Abdullayevanın yaradıcılığında məxsus "Yeddi gözəl" poemasındakı yeddi müxtəlif ölkədən olan yeddi şahzadənin obrazlarının ipək parça üzərində yaradılmış təsviri mürəkkəb, eyni zamanda olduqca zərif, nəfis ornamental tərtibatda həll edilmişdir. Stilizə edilmiş ənənəvi ornamentasiyaya əlavə edilmiş yeni elementlərin də daxil edilməsi parçanın olduqca mükəmməl sənət əsəri kimi göz estetik zövq oxşamasına heç bir şübhə yaratmır.

Belə ki, əsas təsvirin yuxarısında incə xətti elementlərin ifadəsi ilə yaradılmış bədii ifadə sanki şam işığının şüası altında öz qızılı çaları ilə rəsmi daha da canlandırır onun lirikasına xüsusi dəyər qatır.Onun motivləri mücərrəd formalar - nöqtələr, düz dalğalı, qırıq, torşəkilli kəsişən xətlərlə daha mürəkkəb motivlər kimi meydana çıxır.

## Ədəbiyyat:

1. Şuqoev V. Parçada ornament. M.1969.
2. Qarayev Ə. Batika - qədim kəlağayı sənətinin çağdaş varisi // "Mədəniyyət" jurnalı, Bakı, 2010.
3. https://azertag.az/xeber/Azerbaycan_Dovlet_Medeniyyet_ve_Incesenet_Universitetinde_batika_sergisi_Yeddi_gozel-1143549

**Мехрибан Шамсадинская**

**Орнаментальные традиции художественных тканей АзербайджанаXX века**

**Резюме**

Статья посвящена исследованию орнаментального убранства художественных тканей Азербайджана, представленных на традиционном женском головном платке келагаи. Отмечается, что родиной этих изящных головных покрывал является селение Баскал, где и сегодня руками местных мастеров изготавливаются декорированные традиционным орнаментом келагаи. Анализу подвергаются келагаи, созданные Назимом Аскеровым и Али Гахрамановым.

**Ключевые слова:** художественная ткань, келагаи, орнамент, узор, элемент, украшение.

**Mehriban Azeri Shamsadinskaya**

**Ornamental traditions of artistic cloths of Azerbaijan XX century**

**Summary**

The article is devoted to the study of the ornamental decoration of the artistic fabrics of Azerbaijan, presented on the Kelagai traditional women's headscarf. It is noted that the birthplace of these elegant head covers is the village of Baskal, where even today kelagai decorated with traditional ornament are made by local craftsmen. The kelagai created by Nazim Askerov and Ali Gahramanov are analyzed.

**Keywords:** artistic cloth, kelagai, ornament, pattern, element, decoration.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 04.05.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 11.06.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**